# Obrazlarının taleyini yaşayan sənətkar



**Mədəniyyətin ayrılmaz qolunu təşkil edən aktyorluq sənətinin daşıyıcıları sadəcə öz talelərini yaşamır, canlandırdıqları bütün obrazların ömür yolundan keçməli olurlar. Qəhrəmanları ilə birlikdə ağlayıb, gülürlər. Ən dramatik məqamda belə yaratdıqları obrazın taleyini şəxsiləşdirirlər. Bəzən də obrazın ruhundan asılı olaraq daha komik, məzəli görkəm alırlar. Fərqli xarakterlər, xüsusiyyət və davranışlar tələb edir ki, səhnədə tamaşaçını inandıra biləsən. Doğrudur, bu tələbləri heç də hər sənət adamı layiqincə yerinə yetirə bilmir. Tamaşaçı bəzən səhnədə və ekranda obrazı deyil, hansısa aktyoru izləyir. Ancaq fitri istedada sahib olanlar isə yaratdıqları qəhrəmanların adı ilə də yaşayırlar.**

Sənətinin məsuliyyət və ağırlığını çiyinlərində şərəflə daşıyan aktyorlardan biri də Ağasadıq Gəraybəylidir. Onun milli teatrın inkişafı yolunda müstəsna xidmətləri olub. Yaratdığı maraqlı obrazlarla tamaşaçı məhəbbəti qazanıb, bir çox dövlət mükafatları və fəxri adlara layiq görülüb. 80 il davamlı olaraq səhnədə 200 müxtəlif səpkili rolları ifa edib.

1897-ci il martın 15-də Şamaxıda bəy ailəsində doğulan sənətçinin taleyində qardaşı Ağalar Gəraybəyli böyük rol oynayıb. 1902-ci ildə Şamaxıda baş verən güclü zəlzələ onların da evlərini dağıdıb. Bu hadisədən sonra ailə Bakı şəhərinə köçərək burada yaşayıb. Uşaq yaşlarında atasını itirən Ağasadıq Əlisəttar kişi və Heyran xanımın ailəsində yaşayıb. Sənətkarın taleyi ilə oynadığı obrazları arasında bir paralellik olub. Bəy ailəsində doğulan Ağasadıq kimsəsiz uşaq kimi övladlığa götürülüb. Sonrakı ömür yolu isə onu üzü zirvələrə, sənətin şan-şöhrətinə aparıb. Necə ki, Rüstəm bəy kimi koloritli obrazı yaradıb, həyatda da ağayanalığı, ciddiliyi ilə seçilib.

Ağasadıq Gəraybəylinin ilk səhnə debütü 1908-ci ildə Hüseyn Ərəblinskinin truppasında rejissor işləyən qardaşı Ağaların köməkliyi ilə olub. Professional səhnəyə isə 1921-ci ildə Bakı Türk Azad Tənqid və Təbliğ Teatrının səhnəsində başlayıb. 1932-ci ilə kimi burada işləyən aktyor 1920-ci ildə kino sənətinə gəlib. İlk dəfə "Qız qalası" səssiz filmində epizodik rolda oynayıb və sonra "Hacı Qara"da Əsgər bəy, Cəfər Cabbarlının "Sevil" filmində Balaş və bir çox kinolarda bir-birindən gözəl, bənzərsiz obrazları böyük məharətlə canlandırıb. 1921-ci ildə Cəlil Məmmədquluzadənin "Ölülər" pyesində kefli İsgəndər rolunu oynayıb. Üzeyir Hacıbəylinin qayğısı sayəsində teatr kursuna yazılıb. Nəriman Nərimanovun "Nadir şah", Üzeyir Hacıbəylinin "Arşın mal alan", Cəfər Cabbarlının "Sevil", "Od gəlini", "1905-ci ildə", "Vaqif", "Həyat", "On ikinci gecə", "Xanlar" və s. tamaşalarda rol alıb.



Akademik Milli Dram Teatrının yenicə təşkil edilmiş truppasına dəvət alan aktyor burada daha çox faciəli rollara üstünlük verib, lakin onun yaratdığı komik obrazlar da tamaşaçı tərəfindən çox sevilib. Ən çox gülüş, təbəssüm yaradan obrazlarından biri "Bəxtiyar" filmindəki klub müdiri Ağabaladır. Demək olar ki, bütün nitqi, monoloqları hələ də yaddaşlardadır. Məsələn, "yox, yox, canım, indicə Hüseynova bacıları öz məharətlərini göstərəcəklər", "fikirləşin, hamınız fikirləşin", "Rza kimi qohumun başına daş düşsün", "Atova lənət kirpi" və sair. Aktyor "O olmasın, bu olsun" filmindəki Rüstəm bəy rolu ilə obrazın taleyini-keçmişi və hazırkı vəziyyətini olduqca inandırıcı, təbii canlandırıb. Tanınmış teatr-kino xadimi Adil İsgəndərov onun haqqında demişdi: "Əgər Ağasadıq Gəraybəyli təkcə Rüstəm bəy rolunu oynasaydı, yenə də ekran sənətimizin fəxri kimi xatırlanardı".

Ağasadıq Gəraybəylinin son rolu isə "Xurşidbanu Natavan" tamaşasında yaşlı knyaz obrazı olub. O, bu rolu o qədər mükəmməl, təbii oynayıb ki, nə həmkarlarının çoxu, nə də tamaşaçılar hiss etməyiblər ki, 92 yaşlı aktyorun gözləri görmür... Bütün bu məziyyətlərinə görə onun yaratdığı obrazlar teatr tarixinə əbədi yazılıb. Çoxşaxəli yaradıcılığında aktyor yalnız müəllif fikirlərilə, rejissor fantaziyası və mizanlarla kifayətlənməyib. Canlandırdığı obrazın daxili hiss və həyəcanını duyub, əsərin mahiyyətini, nəyə qulluq etdiyini anlayıb. Xalq şairi Səməd Vurğun onun səhnə fəaliyyətini yüksək qiymətləndirərək deyib: "Hər dəfə Ağasadığı səhnədə görəndə həyatın özü, yaratdığı obrazın canlı təsvirləri gözlərim önündən keçir. Onun timsalında həyatla səhnə arasında sıx əlaqə görürəm".

Özü isə xatirələrində belə deyirdi: "1897-ci ildə Novruz bayramı qabağı Şamaxıda anadan olmuşam. Atamı erkən itirdim. Yetimə "gəl-gəl" deyən çox olar, əsl qayğı göstərən isə az. Ən çətin anlarımda Yaradanımız imdadıma yetişdi. İndi də xatırlaya bilmirəm ki, necə oldu Bakıya gəldim. Ancaq qonşumuz Məşədi Məhəmmədin dedikləri hələ də qulaqlarımda səslənir: "Get, a bala, canın zəlzələdən qurtaracaq. Əlin Allahın ətəyində olsun. Zəhmət çəkərsən, bəhrəsini də görərsən". Sahibsiz uşaq idim. Tanımadığım bir darvazanı döydüm. Güləruz, mehriban baxışlı, nurani, ahıl bir kişi qapını üzümə açdı. Elə bil məni çoxdan tanıyırdı. "Gəl görüm, nə istəyirsən?". Kimsəsiz olduğumu ona danışdım. Qəfil dilləndi: "Ay qız, Heyran, haradasan? Tanrı bizə züriyyət göndərib". Həmin gündən Əlisəttar kişidən atalıq, Heyran xanımdan analıq nəvazişi gördüm. Məktəbə gedəndə də bəxtim gətirdi. Sonralar yazıçı-dramaturq kimi tanınan Cəfər Cabbarlı ilə bir sinifdə oxuduq. Dövrün tanınan ziyalısı Hüseyn Ərəblinskidən çox mətləbləri öyrəndim".

92 il ömür yaşayan aktyor təvazökar insan və nümunəvi ailə başçısı olub. Sənətin bütün incəliklərini səhnədə nümayiş etdirməklə yanaşı, onun sirlərini gənc nəslə böyük həvəslə aşılayıb. Özündən sonra böyük aktyorluq məktəbi qoyub. Xalq artisti Ağasadıq Gəraybəyli 1988-ci il dekabrın 5-də Bakıda vəfat edib.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 15 mart (№57).- S.14.